"İQTİSADİ İSLAHATLAR"
elmi-analitik jurnal

# ORTA DƏHLİZLƏ BAĞLI FUNDAMENTAL TƏDQİQAT ƏSƏRİ

№ 2(13)-2025
səh. 127-133

Xəqani Abdullayev
Milli Aviasiya Akademiyası,
Yeni texnologiyalar üzrə prorektor, texnika elmləri doktoru,
professor

Fuad Mirzəyev
Milli Aviasiya Akademiyası,
Elmi informasiya və patent şöbəsinin müdiri, iqtisad üzrə
fəlsəfə doktoru, dosent

https://doi.org/10.30546/2790-2196.02.13.2025.3034

CC BY NC

# ORTA DƏHLİZLƏ BAĞLI FUNDAMENTAL TƏDQİQAT ƏSƏRİ

**Xəqani Abdullayev**
Milli Aviasiya Akademiyası,
Yeni texnologiyalar üzrə prorektor, texnika elmləri doktoru, professor

**Fuad Mirzəyev**
Milli Aviasiya Akademiyası,
Elmi informasiya və patent şöbəsinin müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent

## XÜLASƏ

Kitab haqqında rəydə Orta Dəhlizin əhəmiyyəti və perspektivləri qısaca şərh edilir və əsaslandırılır. Orta Dəhlizin perspektivlərinin reallaşdırılması üçün müvafiq araşdırmaların aparılması zəruriliyi qeyd olunur. Bu mənada "Orta Dəhliz: cari reallıqların təhlili və perspektivlərin dəyərləndirilməsi" mövzusunda hazırlanmış kitabın əhəmiyyəti izah edilir. Rəydə kitabın ideyasının formalaşması, ərsəyə gəlməsi haqqında informasiya verilir. Müəlliflər kitabı Orta Dəhlizlə bağlı ilk fundamental və əhatəli tədqiqat əsəri kimi dəyərləndirərək kitabın bölmələri haqqında ətraflı məlumat verirlər. Ümumilikdə, elmi icmalda Orta Dəhlizin və kitabın əhəmiyyəti paralel olaraq izah edilir, hazırlanmış kitabın nəqliyyat, logistika və iqtisadiyyat sahələrində çalışan mütəxəssislər, tələbələr, tədqiqatçılar, bir sözlə bütün maraqlı tərəflər üçün zəngin və dəyərli bir mənbə olduğu vurğulanır.

**Açar sözlər:** Şərq-Qərb nəqliyyat dəhlizi, Orta Dəhliz, enerji təhlükəsizliyi, İpək Yolu, infrastruktur, rəqəmsallaşma

Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin əhatəsində yerləşən Azərbaycan Respublikası mühüm nəqliyyat-tranzit qovşağı kimi zəngin potensial imkanlara malikdir. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat layihələrinin hər ikisində aktiv iştirak edən Azərbaycan, eyni zamanda, Şimal-Qərb və Cənub-Qərb marşrutları üzrə də beynəlxalq daşımalarda müəyyən paya malikdir. Ölkəmizin qoşulduğu Şərq-Qərb dəhlizinin aktual marşrutlarından biri Orta Dəhliz hesab olunur. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) Çini Avropa ilə birləşdirən dəmir yolu və bərə sistemi olub, beynəlxalq daşımalar və transsərhəd ticarəti üçün mühüm əhəmiyyət kəsb edir.

Orta Dəhliz Şimal Dəhlizindən 2000 kilometr qısadır və daha az daşınma müddəti tələb edir. Dəhlizin proqnozlaşdırılan yükgötürmə qabiliyyəti ildə 25 milyon ton həcmində qiymətləndirilir ki, bu da transxəzər marşrutu üzrə daşımaların inkişafı üçün böyük perspektivlər vəd edir. Onu da qeyd edək ki, 2024-cü ildə Orta Dəhliz üzrə Çindən göndərilən blok qatarların sayı 358-ə çatmışdır. 2025-ci ilin 9 ayı ərzində isə 296 qatar göndərilmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 39% artım deməkdir.




Avropa və Asiya arasında mühüm nəqliyyat-tranzit qovşağı kimi Orta Dəhliz yalnız daşıma marşrutu deyil, həm də iqtisadiyyatın şaxələndirilməsinə, investisiya cəlbediciliyinə təkan verən bir lokomotivdir. Avropa və Asiya arasında ən qısa və təhlükəsiz marşrut hesab olunan Orta Dəhlizdə çevik koordinasiya, logistika və rəqəmsallaşma tədbirlərinin həyata keçirilməsi nəticəsində 2021-ci illə müqayisədə 2030-cu ilədək daşınan yüklərin həcmini üç dəfə artırmaq mümkündür.

Nəqliyyat dəhlizlərinin fəal aktorlarından biri kimi üzərinə düşən öhdəlikləri zamanında yerinə yetirən ölkəmiz Orta Dəhlizin də daha səmərəli və etibarlı marşrut olması üçün mütərəqqi təkliflərlə çıxış edir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi "...**bu gün Avrasiyanın nəqliyyat xəritəsini Azərbaycansız, onun nəqliyyat infrastrukturu olmadan təsəvvür etmək mümkün deyil**".

Müasir dövrdə Orta Dəhliz, özünün sosial-iqtisadi dividendləri ilə yanaşı, həm də Türk dünyasını birləşdirən mühüm siyasi-strateji əhəmiyyətə malik layihə kimi qiymətləndirilir. Dövlət başçısının sözləri ilə desək: "**Bu dəhliz təkcə tranzit imkanlarının genişləndirilməsi baxımından deyil, müxtəlif sahələrdə biznesin inkişafı üçün də mühüm əhəmiyyət daşıyır**".

Bu baxımdan da İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) təşəbbüsü ilə 10 ölkədən (Azərbaycan, Türkiyə, Qazaxıstan, Çin, Böyük Britaniya, Serbiya, Pakistan, Avstriya, İspaniya və Meksika) 22 nəfər elm adamının iştirakı ilə hazırlanmış "Orta Dəhliz: cari reallıqların təhlili və perspektivlərin dəyərləndirilməsi" ("The Middle Corridor: Navigating Current Realities and Embracing Future Prospects") adlı kitab dövlət başçısının tövsiyələrindən və qlobal çağırışlardan irəli gələn bir zərurət kimi mühüm əhəmiyyət kəsb edir. Avropanın nüfuzlu elmi nəşriyyatı olan "Târgu Mureş Universitet Nəşriyyatı" (University Press Târgu Mureş) tərəfindən ingilis dilində çap olunan əsər Orta Dəhlizlə bağlı ilk fundamental və əhatəli elmi tədqiqat əsəridir. Kitabın CAREC İnstitutu, İƏT (OECD) və İİTKM-in birgə əməkdaşlığı ilə ərsəyə gəlməsi tədqiqatların əhatə dairəsini daha da genişləndirir və fərqli

ölkələrdən müxtəlif yanaşmalarla kitaba xüsusi rəngarənglik verir.

İİTKM-in icraçı direktoru, iqtisad elmləri doktoru, professor Vüsal Qasımlının elmi redaktorluğu ilə ərsəyə gəlmiş kitab ümumilikdə **giriş, səkkiz fəsil və ədəbiyyat siyahısından ibarət olmaqla 506 səhifə** həcmindədir. İdeyası 2023-cü ilin sentyabr ayında Karpaç şəhərində Polşa İqtisadi Forumunda yaranan kitabın giriş hissəsində qeyd edilir ki: "...dünya təchizat zəncirindəki pozuntular və geosiyasi qeyri-müəyyənliklərlə mübarizə apardıqca, Orta Dəhliz ümid mayakı kimi ortaya çıxır və Şərqlə Qərbi birləşdirmək üçün davamlı və səmərəli alternativ təklif edir. Onun iqtisadi inteqrasiya və əməkdaşlığı təşviq etmək potensialı danılmazdır və strateji əhəmiyyətinin gələcək illərdə artacağı ehtimal olunur".

Təbii ki, marşrut nə qədər cəlbedici və səmərəli olsa da, Orta Dəhlizin effektivliyini təmin etmək üçün infrastruktur, qanunvericilik, rəqəmsallaşma və innovasiya baxımından da inkişaf zəruridir. Qeyd edilən istiqamətlərdə böyük irəliləyişlər əldə edilsə də, bəzi çətinliklər də qalmaqdadır. Məsələn, OECD tərəfindən sorğu edilən maraqlı tərəflər Orta Dəhlizin rəqabət qabiliyyətinə təsir edən nəqliyyat marşrutu daxilində bəzi çətinliklər müəyyən ediblər. OECD-nin təhlilinə görə, vacib məqamlarda maneələrin olması gözlənilməz tranzit müddətlərinə səbəb olur, marşrut multimodallıq və konteynerləşmə ilə bağlı problemlərlə qarşılaşır, limanlar və sərhəd keçidləri, dəmir yolu və dəniz nəqliyyatı arasında aşağı inteqrasiya ilə xarakterizə olunan səmərəsiz multimodallıq səbəbindən dəhlizdə tıxaclar yaranır. Eyni zamanda, konteynerlərdən optimal istifadə olunmaması infrastrukturun qeyri-kafi olması və konteyner tədarükündəki çətinliklərlə əlaqələndirilir. Bütün bunlar, aparılan tədqiqatların və hazırlanan kitabın əhəmiyyətini və zəruriliyini bir daha ifadə edir. Yəni, kitab yalnız Orta Dəhlizin mövcud imkanlarının təbliği və təşviqini deyil, eyni zamanda daşıma prosesləri zamanı yaranan problemləri, onların aradan qaldırılmasına dair təklif və tövsiyələri, eləcə də perspektivləri özündə ehtiva edir. Eyni zamanda, ayrı-ayrı ölkələrdən müxtəlif alim və ekspertlərin dəhlizə fərqli yanaşmaları kitabın zənginliyini daha da artırır.

Konkret fəsillərə nəzər saldıqda aydın olur ki, kitabın "**Orta Dəhlizə baxış: ticarət və tranzit infrastrukturu"** adlanan **birinci** fəslində Orta Dəhlizə qitələrarası əlaqələrin inkişaf yolu və iqtisadi inteqrasiyanı gücləndirən innovasiya marşrutu kimi yanaşılır. Qədim ticarət marşrutu kimi "İpək Yolu"nun formalaşması tarixi və müasir ticarət yolları təhlil edilir, Orta Dəhlizə İpək Yolunun təkamülünün nəticəsi kimi yanaşılır. Vurğulanır ki, Orta Dəhliz multimodal daşımalara şərait yaradan iqtisadi inkişaf körpüsüdür. Bu fəsildə Orta Dəhliz boyunca limanlar, sərhəd-buraxılış məntəqələri, yollar və s. mövcud ticarət və infrastruktur imkanları təhlil edilir, perspektivlər izah olunur, potensial imkanlardan səmərəli istifadəyə yönəlmiş təkmilləşdirici təkliflər verilir.

"**İpək Yolu regionunda enerji geosiyasəti"** adlanan **ikinci** fəsildə isə İpək Yolu regionunda enerji geosiyasəti və bunun böyük dövlətlərə təsirləri təhlil edilir, TRACECA, "Bir kəmər bir yol", Orta Dəhliz, Zəngəzur və s. layihələrə kompleks yanaşma edilir. Bu fəsildə, eyni zamanda, beynəlxalq nəqliyyat əlaqələrinin davamlı inkişafa təsirləri araşdırılır, nəqliyyat, ətraf mühit və iqtisadi inkişaf məsələləri əlaqəli şəkildə tədqiq olunur. Yaşıl nəqliyyat dəhlizlərindən bəhs edilir və bunun dayanıqlı ətraf mühit üçün əhəmiyyəti əsaslandırılır. Orta Dəhlizə yalnız bir daşıma yolu kimi deyil, həm də zəngin enerji sistemi kimi yanaşılır, regionda reallaşdırılan mühüm neft-qaz kəmərlərinin, enerji layihələrinin fəaliyyəti təhlil edilir.

"**Orta Dəhliz enerji dəhlizi kimi: Avropa İttifaqı üçün perspektivlər və çağırışlar**" adlanan **üçüncü** fəsildə isə Orta Dəhlizə bir enerji dəhlizi kimi yanaşılır və Avropa İttifaqı üçün gələcək gözləntilər araşdırılır. Enerji ixrac edən ölkələr kimi Azərbaycan, Qazaxıstan, Özbəkistan və Türkmənistanın Avropa İttifaqı ölkələri ilə əlaqələri izah edilir, perspektivlər göstərilir. Eyni zamanda, Avropa İttifaqının Cənubi Qafqaz və Orta Asiya üzrə strategiyası nəzərdən keçirilir, enerji əlaqələrinin gücləndirilməsinə bu strategiyanın əsası kimi yanaşılır, Avropa İttifaqının Orta Dəhliz regionunda enerji ambisiyaları üçün çağırış və perspektivlər verilir.

Kitabın **dördüncü** fəsli **"Orta Dəhlizin potensialının reallaşdırılması"** adlanır. Bu fəsildə Orta Dəhliz üzrə multimodal daşıma yolları, limanlar və s. timsalında potensial imkanlar təhlil olunur, bu imkanların reallaşdırılması üçün regional ticarətin təşviqi, rəqəmsallaşma, özəl sektorun proseslərə yaxından cəlb olunması tövsiyə edilir. Eyni zamanda, regional bazarların qlobal iqtisadiyyata inteqrasiyası baxımından bütün infrastruktur sahələrinin (dəmir yolları, yük avtomobilləri zolaqları, limanlar, sərhəd keçid məntəqələri və s.) sinxron şəkildə inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılır, eləcə də bu istiqamətdə təkliflər verilir.

**"Xarici ticarətdə milli valyutaların istifadəsi üçün yeni ödəniş və hesablaşma sistemləri: FinteX, DeFi-nin təsirləri və imkanları"** adlanan **beşinci** fəsildə TANAP, TAP, BTC və s. kimi əhəmiyyətli layihələrə baxılır, Orta Dəhlizə qədim İpək Yolunun əsas marşrutu kimi yanaşılır. Xarici ticarətin daha da inkişaf etdirilməsi üçün yeni ödəniş və klirinq sistemlərinin formalaşdırılması imkanları, beynəlxalq ödəniş sistemləri, bank xidmətləri, fintek, milli valyutaların istifadəsi üçün mərkəzləşdirilməmiş maliyyə, kriptovalyutalardan istifadə, rəqəmsal bankçılıq və s. kimi məsələlər araşdırılır. Bu fəsildə texnologiya və rəqəmsallaşma, yeni inkişaf etməkdə olan bazarlar, ödəniş və mübadilə sistemləri ilə yaxından əlaqəli olan kriptovalyutalar və s. kimi çağırışlar fonunda, Orta Dəhlizə təkcə ticarət və enerji yolları baxımından deyil, həm də maliyyə baxımından körpü kimi yanaşılması tövsiyə olunur.

Kitabın növbəti fəslində ticarət, investisiyalar və azad iqtisadi zonalara dair kompleks araşdırma aparılır, ikitərəfli ticarət sövdələşmələrinin Orta Dəhlizə təsiri, transsərhəd ticarət zonalarının və xüsusi iqtisadi zonaların əhəmiyyəti, Orta Dəhlizdə infrastruktur təminatına investisiya imkanları kimi məsələlər əhatə olunur. Orta Dəhlizin coğrafi əhəmiyyəti, dəhliz boyunca ticarət münasibətləri və "Visegrád group" ölkələrinə təsirləri araşdırılır. Yerli KOB subyektlərinin Orta Dəhliz boyunca logistika proseslərində yaxından iştirakına şərait yaradılması, bütün KOB subyektləri üçün bərabər imkanların formalaşdırılması məsələlərinə uğurlu idarəetmənin perspektivi kimi baxılır, KOB subyektləri üçün çağırış və imkanlar izah edilir. Bütün bunlar "**Orta Dəhliz boyunca ticarət, investisiya, azad iqtisadi zonalar və yerli KOB-lar üçün bərabər çıxışın təşviqi**" adlanan **altıncı** fəsildə əhatə edilir.

"**Avrasiyada regional infrastruktur və geosiyasi dəyişikliklər**" adlanan **yeddinci** fəsildə isə Avrasiyada regional infrastruktur və geosiyasi dəyişikliklər kontekstində Xəzər regionunun infrastruktur təminatı, neft və qaz nəqli imkanları, ortaq (uzlaşdırılmış) hüquqi mühitin formalaşdırılması, qəbul edilmiş Konvensiyaların (məsələn, Xəzər dənizinin hüquqi statusuna dair Konvensiya) bütün iştirakçılar tərəfindən ratifikasiya edilməsi zəruriliyi kimi məsələlər əhatə olunur.

Kitabın "**Orta Dəhlizin ali təhsil, tədqiqat və innovasiya layihələrində rolu: əldə olunmuş nəticələr və gələcək üçün strateji yol xəritəsi**" adlanan sonuncu – **səkkizinci**

fəslində isə Orta Dəhlizin qlobal ticarət siyasətinin və iqtisadi əlaqələrin inkişafına təsirləri təhlil edilir, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində iqtisadi əməkdaşlığın gücləndirilməsində Orta Dəhlizin rolu əsaslandırılır. Bu fəsildə Orta Dəhliz təşəbbüsü, eyni zamanda, Türkiyə kontekstində dəyərləndirilir, dəhlizin təsirləri və inkişafında Türkiyənin əsas rolu, iqtisadi, geosiyasi imkanları izah edilir, Türkiyə qarşısında dayanan çağırış və risklər aydınlaşdırılır. Orta Dəhliz boyunca inteqrasiya proseslərinin sürətləndirilməsi məqsədilə ali təhsil sahəsində əməkdaşlıq, üzv ölkələrin birgə araşdırma və inkişaf layihələrini reallaşdırması kimi məsələlər əhatə olunur, birgə təhsil layihələrindən, universitet birliklərindən bəhs edilir.

Kitab olduqca mükəmməl və əhatəli hazırlanmış zəngin bir mənbədir. Bunun nəticəsidir ki, **Türkiyə, Belçika, Lüksemburq, Polşa, Qazaxıstan, Özbəkistan** və digər ölkələrdə, eləcə də **Azərbaycanda ali təhsil müəssisələrində** təqdimatı keçirilib. Yuxarıda ayrı-ayrı fəsillərin əhatə etdiyi mövzulardan da göründüyü kimi, "Orta Dəhliz: cari reallıqların təhlili və perspektivlərin dəyərləndirilməsi" kitabında Orta Dəhlizə yalnız bir daşıma marşrutu kimi deyil, maliyyə inteqrasiyası, təhsil və tədqiqat əməkdaşlığı, enerji infrastrukturu və s. kimi müxtəlif aspektlərdən yanaşılır. Ayrı-ayrı istiqamətlər müəlliflər tərəfindən əsaslandırılır, perspektivlər barədə təklif və tövsiyələr irəli sürülür. Bütün bunlar kitabı daha da zənginləşdirir, onun dəyərini artırır. Qeyd olunanları nəzərə alaraq, əminliklə bildirmək olar ki, "Orta Dəhliz: cari reallıqların təhlili və perspektivlərin dəyərləndirilməsi" adlı monoqrafiya, Orta Dəhlizlə bağlı fundamental araşdırma olmaqla yanaşı, nəqliyyat, logistika və iqtisadiyyat sahələrində çalışan mütəxəssislər, tələbələr, tədqiqatçılar, həmçinin özəl sektor nümayəndələri, investorlar və aidiyyəti dövlət qurumları üçün zəngin və dəyərli bir mənbədir.

Maraqlananlar kitabın elektron variantını aşağıdakı linkdən əldə edə bilərlər: https://ereforms.gov.az/az/publications/39

# A FUNDAMENTAL STUDY ON THE MIDDLE CORRIDOR.

Khagani Abdullayev
Fuad Mirzayev

The book review briefly interprets and substantiates the significance and future prospects of the Middle Corridor. It emphasizes the necessity of conducting comprehensive research to facilitate the realization of the Middle Corridor’s potential. In this context, the importance of the book titled “The Middle Corridor: Navigating Current Realities and Embracing Future Prospects” is explained. The review provides information on the conceptual development and the process through which the book was produced.

The authors evaluate the book as the first fundamental and comprehensive research work dedicated to the Middle Corridor and present detailed information about its chapters. Overall, the academic review explains the significance of both the Middle Corridor and the book in parallel, emphasizing that the publication constitutes a rich and valuable resource for specialists working in the fields of transport, logistics, and economics, as well as for students, researchers, and, more broadly, all stakeholders interested in this area.

**Keywords:** East-West Transport Corridor, Middle Corridor, energy security, Silk Road, infrastructure, digitalization.

**Redaksiyaya daxil olub: 19.12.2025**

**Çapa qəbul olunub: 30.01.2026**